**S.M.MEHDİZADƏ**
*e-mail: mustafamehtiyev2610@gmail.com*

**Gəncə Dövlət Universiteti**
(Gəncə şəh., Heydər Əliyev pr., 429)

# MƏKTƏBƏQƏDƏR YAŞLI UŞAQLARDA GÜNÜN HİSSƏLƏRİ HAQQINDA TƏSƏVVÜRLƏRİN FORMALAŞDIRILMASI

***Açar sözlər:*** *günün hissələri,bağça yaşlı uşaqlar, gün, sutka, səhər, axşam, sutka vaxt ölçüsü*
***Ключевые слова:*** *части суток, дети дошкольного возраста, день, сутки, утро, вечер, измерение времени суток.*
***Key words:*** *parts of day, preschool children, day, days, morning, evening, measurement the day time.*

Vaxtın ölçülməsi üçün daim təkrarlanan anlayışlar: gecə və gündüzün növbələşməsi, Yerin sutka ərzində öz oxu ətrafında fırlanması, Ayın Yer ətrafında hərəkəti və o cümlədən Yerin Günəş ətrafında dövr etməsi qəbul edilib.

Yer kürəsinin öz oxu ətrafında bir dəfə dövr etməsi bir gün (bir sutka) adlanır. Gün dedikdə Günəşin çıxmasından batmasına qədər vaxt, müddət nəzərdə tutulur. Yer kürəsinin müxtəlif yerlərində və ilin müxtəlif vaxtlarında gecə-gündüz anlayışlarından istifadə edilmişdir. Sutka vaxt ölçüsü kimi 24 saatdır. Buna görə də ölçülən zaman sutka ilə ölçülür. Bu, birinci həqiqi zaman ölçü vahididir. Gün (sutka) dörd hissəyə bölünür: səhər, günorta, axşam, gecə. Belə bölünmə bir tərəfdən obyektiv dəyişikliklərlə – günəşin müxtəlif vəziyyətlərdə, dayanması, ayın çıxması və batması, ulduzlarla bağlıdırsa, digər tərəfdən sutkanın müxtəlif hissələrində insanların müxtəlif, fəaliyyətində istirahət və əməyin növbələşməsi ilə əlaqədardır.

S.İ.Ojeqovun tərtib etdiyi lüğətdə (7, s.155, 173, 409) gündüz məfhumu – sutkanın səhərdən axşamadək hissəsi; gecə – axşamdan səhərədək olan müddət; səhər – günün başlanması kimi izah edilmişdir. Digər mənbədə (2, səh.68,151) isə gecə – günün gün batandan gün çıxana qədər, axşamdan-səhərə qədər olan hissəsi, gündüz – gecə-gündüzün işıqlı hissəsi; gün doğandan gün batana qədər olan müddət; səhər – günün başlanğıcının ilk saatları, sabah açıldığı vaxt; sübh; axşam – günün axırından gecənin başlanmasına qədər olan vaxt, gün batan vaxt; günorta – gündüz saat 12 tamam, Günəşin üfüq üzərində ən yüksək nöqtəyə çatdığı vaxt kimi müəyyən edilir.

Uşaq bağçasında zaman haqqında təsəvvürlərin inkişafına orta qrupda başlamaq lazımdır; böyük qrupda isə bu əsasda ardıcıllığı, günlərin növbələşməsini göstərmək lazımdır. Müşahidələr göstərir ki, müxtəlif yaş qruplarının uşaqları sutka haqqında bilikləri müstəqil mənimsəyə bilmirlər.

Təcrübələr nəticəsində aydınlaşdı ki, bəzən uşaqlar sutkanın hissələrini fəaliyyətə görə, onlara xarakterik vaxt müddətinə görə mənimsəyirlər. Uşaqlara aşağıdakı suallara cavab verməyi təklif etdik: “Sən bağçaya nə vaxt gəlmisən?”, “Nə vaxt yatacaqsınız?”, “Evə nə vaxt gedəcəksiniz?”, “Evdə nə vaxt yatacaqsınız?” və s.

Uşaqlara şəkillər təqdim olundu.

Şəkildəki təsvirə, fəaliyyətin məzmununa görə uşaqlar vaxtı təyin edib, adlandırmalı idilər. Bu tədqiqat uşaq bağçasının bütün yaş qruplarında keçirildi. Bunun nəticəsində aydınlaşdı ki, hətta kiçik qrup uşaqları onlara yaxşı tanış olan daim təkrarlanan fəaliyyətə görə vaxtı təyin etməyə çalışırlar. Uşaqlara şəkilləri göstərib, məzmun üzrə izah edərək orada nə çəkildiyini göstərdikdən sonra “bu nə vaxt olur?” sualı verildi. Vaxtı təyin etməyə çalışan uşaqlar əsasən “səhər” və “axşam” cavabını verdilər.

Orta qrupda uşaqların sutkanın hissələrinin ardıcıllığı haqqında biliklərini yoxladıq. Uşaqların ancaq yarısı günün hissələrini ardıcıllıqla söyləyə bildi. Məsələn, səhərdən sonra

günorta, sonra axşam, gecə olur və gün qurtarır. Sonra yenə səhər olur. Şəkillərə baxaraq, "Bu nə vaxt olur?" sualına cavab almağa çalışdıq. Uşaqlar təsvirləri göstəriçilər kimi qəbul edərək, sutkanın hissələrini adlandırdılar.

Məktəbəqədər yaşlı uşaqların sutkanın hissələrinin ardıcıllığını təyin etmək, adlandırmaq bacarığının mənimsədilməsi zamanı aşağıdakı xüsusiyyətlər qeyd edildi: 1. Günün hissələrinin adının mənimsənilməsinin qeyri-bərabərliyi; 2. Fəaliyyətinin konkret növü və konkret əlamətləri olan böyüklərin tez-tez işlətdikləri hissələrin ayrılması; 3. Şəxsi həyat və fəaliyyət təcrübəsi əsasında sutkanın hissələrinə münasibət; 4. Qayda üzrə günün hissələrinin səhərdən başlanaraq ardıcıllığını müəyyənləşdirmək.

Bu xüsusiyyətlərdən çıxış edərək, uşaqlarda sutkanın hissələri, ardıcıllığı haqqında biliklərin formalaşdırılması üzrə iş metodları müəyyənləşdirildi.

Uşaq zamanı konkret əlamət kimi qəbul edir. Amma bu konkret əlamətlər (səhər işıq olur; uşaqlar bağçaya gedirlər; ata-anamız işə gedir; axşam biz bağçadan, valideynlərimiz işdən evə qayıdır; gecə hər yan qaranlıq olur, hamı yatır) valideynləri növbəli işdə işləyən uşaqlar üçün tam aydın olmur. Buna görə də uşaqların tərbiyə xüsusiyyətləri sutkanın hissələrinin fərqləndirilməsini öyrənərkən mütləq nəzərə alınmalıdır.

Sutkanın hissələrinin fərqləndirilməsinin öyrədilməsi ətraf aləmlə tanışlıq məşğələlərində keçirilməsi daha məqsədəuyğundur. Tövsiyələrimiz əsasında məşğələ keçilən qrupda daha çox sözlü oyunlardan istifadə edildi ki, bu oyunlara sutkanın müəyyən hissələrinin adları daxil edildi. Məsələn, "Hansı söz olmalıdır?" oyununda tərbiyəçi sutkanın hər hansı hissəsinin adını buraxaraq cümlə deyir: "Bağçaya səhər gəlirik, evə isə ... gedirik" və uşaqlar buraxılmış sözü əlavə edirlər. Eyni zamanda tərbiyəçi sutkanın hissələrini təbii obyektiv göstəricilərlə əlaqələndirdi (işıq, qaranlıq, günəşli ay və s.).

Böyük qrupda isə uşaqların sutkanın hissələri haqqında tösəvvürləri genişləndirilərək dərinləşdirildi. Əgər orta qrupda sutkanın hər bir hissəsi hər hansı fəaliyyətin məzmununa görə təyin edilirsə, böyük qrupda isə günün hansı hissəsində nə olduğu əsasında təyin edilir. Bu məqsədlə nisbətən geniş məzmunlu şəkillərdən, məsələn, "Səhərlər uşaqlar məktəbə gedir, axşam isə televizora baxırlar" və s.-dən istafadə olundu.

Uşaqların sutkanın hissələri ilə tanışlığında oyun-səyahətlərin rolu böyükdür. Tərbiyəçi oyunu belə sözlərlə başladı:

Biz sizinlə guya küçəyə gəzintiyə gedirik, baxaq görək səhərlər nə edirlər? Biz evdən çıxanda küçələr tər-təmiz olur. Çünki küçə süpürənlər səhər tezdən küçələri süpürüb təmizləyir. Böyüklər işə tələsir, uşaqlar məktəbə, bağçaya gedirlər.

Bu tipli oyunlar vasitəsilə sutkanın hissələrinin təyin edilməsi uşaqların bacarığını möhkəmləndirir və bu sözləri öz nitqlərinə sərəbəst daxil edə bilirlər.

Bundan başqa, uşaqlar günün hissələrini obyektiv göstəricilər əsasında (Günəşin yerinə görə, havanın işıqlılığına görə və s.) təyin etməyi öyrəndilər. Bu məqsədlə gəzinti zamanı müşahidələr təşkil etdik. Günəşin çıxması və batmasının şəhər şəraitində müşahidə etmək çətin olduğu üçün onların diqqətini səmanın rənginə cəlb etdik. Uşaqlar öyrəndilər ki, səhər Günəş hər tərəfi gur işıqlandırır. Günorta göyün düz ortasında olur, batanda isə səmanın rəngi bozarır, asta-asta hava qaranlıqlaşır.

Uşaqların günün hissələri ilə tanış edilməsində kartlardan istifadə edildi. SƏHƏR – mavi rəng, GÜNORTA – sarı, AXŞAM – boz, GECƏ – qara rənglə fərqləndirildi. Bizim fikrimizcə rəngli şərti işarə simvol kimi verilmişdir. Uşaqlar rəngləri asanlıqla müəyyən məlumat daşıyıcısı kimi qəbul edirlər. Uşaqlar bütün kartları göstərdikdən sonra səhər, axşam, gecə və s. təsvir olunmuş kartı tez tapmağı təklif edirik. Rəngə görə artıq uşaqlar sutkanın bütün hissələrini təyin edirlər. Tərbiyəçi ya şer, ya tapmaca söyləyir və soruşur: "Bu nə vaxt olur"?

Uşaqlar artıq sutkanın bütün hissələri haqqında təsəvvürlərə yiyələndikdən, xarakterik fəaliyyət və obyektiv göstəricilərə istinad edərək onların hər birini rəngli işarələrlə təyin etməyi, düzgün adlandırmağı öyrəndikdən sonra, biz günün hissələrinin ardıcıllığı haqqında

bilikləri dəqiqləşdirməyi qarşımıza bir məqsəd kimi qoyduq: "Biz öyrəndik ki, gün səhərdən başlayır. Bəs səhərdən sonra nə olur? Günorta işdə adamlar, bağçada uşaqlar nə edirlər? Günortadan sonra nə olur? Axşam qurtardıqdan sonra nə olur?"

Böyük qrupda uşaqlarda günün hissələrinin ardıcıllığı, haqqında məlumatlar formalaşdırıldıqdan sonra artıq onlara sutka sözünün mənasını açmaq məqsədə müvafiqdir. Sutka 24 saatdan, 4 hissədən ibarətdir. Səhər, günorta, axşam, gecə. Uşaqlara öyrətmək lazımdır ki, bir sutkanın tam olması üçün bu dörd hissənin hər hansından başlanıb, onda da qurtarmaq lazımdır. Məsələn, bu səhərdən sabah səhərədək, bu günortadan sabah günortayadək və s.

İlin fəsilləri ilə tanışlıq da həmin metodika üzrə təşkil edilə bilər.

## Ədəbiyyat


1. Воспитание детей в средней группе детского сада. М., 2011.
2. Левин-Щирина Ф.С., Менджерицкая Д.В. Воспитание и обучение детей трех-семи лет. Учеб. пособие. М., 2005.
3. Подготовка детей к школе в детском саду (Под ред. А.Ф.Сохина, Т.В.Тарунтаевой). М., 2007.


**С.М.Мехдизаде**

**Формирование представлений о частях суток у детей дошкольного возраста**

***Резюме***

В статье выявлены возможности информирования детей дошкольного возраста о частях суток, как утро, день, вечер, ночь, где найдены пути освоения ими этих понятий. Данная идея и методологический подход, основываясь на последние достижения педагогики и психологии, имеет как теоретическое и практическое значение, также оказывают глубокое влияние на дальнейшее развитие нашей педагогической науки.

**S.M.Mehdizade**

**Formation of the ideas about parts of day in preschool children**

***Summary***

The article reveals the opportunities for informing preschool-age children about the parts of day, like morning, afternoon, evening, night, where ways of mastering these concepts. This idea and methodological approach, based on the innovative achievements of pedagogy and psychology, has both theoretical and practical significance, and also have a profound impact on the further development of our pedagogical science.

*Rəyçi: ped.e.d., prof. Ş.T.Tağıyev*

*Redaksiyaya daxil olub: 25.05.2022*